Haruki Murakami

SƏRHƏDDƏN CƏNUBDA, GÜNƏŞDƏN QƏRBDƏ

Tərcümə:
Orxan Əmrullayev

QANUN NƏŞRİYYATI

Haruki Murakami

KOKKYO NO MINAMI, TAIYO NO NISHI

Yaponiyanın şəhərətrafı qəsəbələrindən birində böyüyən Hacime adlı oğlan düşünürdü ki, hamının bacı-qardaşı var, bircə o, evin tək uşağıdır. Sonradan Şimamoto adlı bir qızla dostlaşmışdı, o da evin tək uşağı idi. Onlar məktəbdən evə birgə qayıdar və günorta Şimamotonun atasının kolleksiyasındakı musiqiləri dinləyərdilər. Hacimegil qəsəbədən köçəndən sonra onların əlaqəsi kəsilmişdi.

Artıq Hacimenin yaşı otuzu keçib. On il məqsədsiz yaşadıqdan sonra evlənib və iki sevimli qızı var. İşləri də qaydasındadır, müştəri cəhətdən korluq çəkməyən iki caz barının sahibidir. Amma həyatında hər şey qaydasında görünsə də, daxilində dərin boşluq hiss edir.

Bir gün yağışlı gecədə uşaqlıq sevgisi Şimamoto füsunkar aurası ilə onun qarşısında peyda olur. Beləcə, Hacime həyatının dönüş nöqtəsində olduğunu hiss edir. İndi verəcəyi qərarlar həyatını tamamilə dəyişdirə bilər...

1

1951-ci ilin dörd yanvarında doğulmuşdum. İyirminci əsrin ikinci yarısının ilk ilinin ilk ayının ilk həftəsində. Valideynlərim adımı Hacime (İlkin adının yaponcası) qoymaqla, yəqin ki, nəyinsə başlanğıcını bayram edirdilər. Özü də o dövrdə doğumda yüz faizlik artım var idi. Atam böyük broker şirkətində işləyirdi, anam isə tipik ev qadını idi. Müharibə dövründə atam tələbə olsa da, əsgərliyə çağırılmış və döyüşmək üçün Sinqapura göndərilmişdi. Məğlubiyyətdən sonra bir müddət əsir düşərgəsində qalmışdı. Anamgilin evi müharibənin son ilində B-29 təyyarələrinin bombardmanı nəticəsində kül olmuşdu. Müharibə dövründə ən çox zərər onların nəslinə dəymişdi.

Buna baxmayaraq, mən doğulanda müharibədən sonrakı dövr olduğu hiss olunmurdu. Nə dağıntılar, nə də işğalçı ordu gözə dəyirdi. Kiçik, sakit bir qəsəbədə atama iş yerindən verilmiş evdə yaşayırdıq. Ev müharibədən əvvəl tikilmişdi, bir az köhnə olsa da, kifayət qədər geniş idi. Həyətimizdə şam ağacları boy atmışdı, hətta balaca bir hovuzumuz və daşdan yonulmuş bir neçə lampamız da vardı.

Böyüdüyüm qəsəbə orta sinfin yaşadığı məhəllələrdən ibarət idi. Sinif yoldaşlarımın hamısı səliqəli, kiçik terraslı evlərdə yaşayırdı, bəzilərinin evi bizimkindən bir az böyük olsa da, ha-

mısının oxşar girişi və şam ağaclı həyətləri olduğuna əmin ola bilərdiniz. Dostlarımın ataları ya özəl şirkətdə çalışırdılar, ya da başqa sənətləri var idi. Demək olar ki, heç kimin anası işləmirdi və əksəriyyətinin pişiyi və ya iti var idi. Tanışlarımdan heç biri bina evində yaşamırdı. Sonralar qəsəbənin başqa tərəflərinə getmişdim, hər yer bir-birinə bənzəyirdi. Nəticədə universitet üçün Tokioya gedənə qədər dünyadakı bütün insanların ailələri ilə həyət evində pişik və ya itlərlə yaşayıb, işə kostyumla getdiklərini düşünürdüm. Başqa cür həyat tərzini təsəvvürümə gətirə bilmirdim.

Yaşadığım dünyada hər bir ailənin iki və ya üç uşağı var idi. Uşaqlıq dostlarımın hamısı belə ailələrdə böyümüşdü. Ailədə iki uşaq deyildilərsə, deməli, üç uşaq idilər, yox, əgər üç uşaq deyildilərsə, iki uşaq idilər. Altı, ya yeddi uşaqlı ailələrin sayı az idi və onlar uzaqlarda yaşayırdılar, amma daha az rast gəlinən təkuşaqlı ailələr idi.

Evin tək uşağı olaraq mən də belə bir ailədə yaşayırdım. Buna görə utancaqlıq kompleksinə qapılmışdım, sanki mənimlə bağlı nələrsə fərqli idi, elə bil bütün başqa insanların malik olduğu şeydən məhrum idim.

Tək uşaq sözündən zəhləm gedirdi. Hər dəfə bu sözü eşidəndə nədənsə əskik olduğumu hiss edirdim – elə bilirdim tam bir insan deyiləm. *Tək uşaq* sözü qarşımda dayanır, günahlandıran barmağı ilə məni göstərirdi. Mənə: "Səndə çatışmayan nəsə var, dost", – deyirdi.

Yaşadığım dünyada hamı düşünürdü ki, evin tək uşaqları valideynləri tərəfindən ərköyün böyüdülür, belə uşaqlar zəif və eqoist olurlar. Bu, hündürə çıxdıqca barometrin düşməsi və inəklərin süd verməsi kimi təbii hal idi. Əslində, elə buna görə kiminsə məndən evdə neçə uşaq olduğumuzu soruşmasından xoşum gəlmirdi. Onlar tək uşaq olduğumu bilən kimi instinktiv olaraq belə düşünürdülər: *demək, evin tək uşağısan, hə? Onda yüzdə yüz ərköyün, zəif və eqoistsən.* Refleks kimi göstərilən bu münasibət

məni üzür və incidirdi. Amma məni daha çox üzən və incidən başqa şey idi: onların düşündüklərinin hamısı doğru idi.

İbtidai sinifdə oxuduğum altı il boyunca evin tək uşağı olan yalnız bir nəfərlə qarşılaşmışdım. Ona görə də o qızı (hə, o, qız idi) yaxşı xatırlayıram. Onunla yaxından tanış ola bilmişdim. Birlikdə hər cür mövzudan danışırdıq. Bir-birimizi başa düşürdük. Hətta, demək olar, onu sevirdim də.

Adı Şimamoto idi. Doğulandan qısa müddət sonra iflic keçirdiyi üçün sol ayağını sürüyərək yeriyirdi. Məktəbimizə beşinci sinfin sonunda gəlmişdi deyə mənə nisbətən daha ağır psixoloji çətinliklə üzləşmişdi. Bu çətinlik onu mənim ola bilmədiyim qədər sərt və təmkinli bir uşağa çevirmişdi. Nə mızıldanır, nə də gileylənirdi. Hərdənbir əsəbiləşsə də, bunu bildirmirdi. Hər vəziyyətdə gülümsəyirdi. Vəziyyət pisləşdikcə gülümsəməsi də böyüyürdü. Onun təbəssümünü sevirdim. Bu məni sakitləşdirir, cəsarətləndirirdi. Onun təbəssümü mənə: "*Hər şey qaydasına düşəcək,* – deyirdi. – *Bir az da gözlə, hər şey düzələcək".* İllər keçdikdən sonra nə vaxt onu düşünsəm, təsəvvürümə ilk gələn onun təbəssümü olurdu.

Şimamoto məktəbdə həmişə yaxşı qiymətlər alırdı və hamıya qarşı ürəyiaçıq idi. Hamı da ona hörmət edirdi. Bu baxımdan hər ikimiz evin tək uşağı olsaq da, bir-birimizdən fərqlənirdik. Bu o demək deyil ki, hamı onu sevirdi. Ən azından, heç kim ona sataşmır və onu lağa qoymurdu, bununla belə, onun məndən başqa əsl dostu yox idi.

Kənardan çox soyuq və olduqca təmkinli görünürdü. Buna görə sinif yoldaşlarımızdan bəziləri onu adamayovuşmaz və dikbaş sayırdılar. Amma mən onda tamamilə başqa bir şey sezmişdim – onun daxilində istiqanlılıq və kövrəklik var idi. Onun bu xarakteri gizlənqaç oynayan uşaq kimi çox dərində gizlənmişdi, amma tapılmağını gözləyirdi.

Atasını işdən tez-tez ezamiyyətə göndərdikləri üçün Şimamoto xeyli məktəb dəyişmişdi. Atasının nə işlədiyi yadımda

deyil. Şimamoto bir dəfə atasının işi barədə ətraflı danışmışdı, amma o yaşdakı bütün uşaqlar kimi, mən də bir qulağımdan alıb o birindən çıxarmışdım. Bank, yaxud vergi idarəsi kimi bir yerlə bağlı işi olduğunu ötəri xatırlayıram. Şirkətin verdiyi evdə yaşayırdılar. Normadan geniş evləri Qərb stilində idi və alçaq daş hasarla əhatə olunmuşdu. Hasarın üstündə həmişəyaşıl koldan çəpər var idi və arasından baxanda həyətdəki otları görmək olurdu.

Şimamoto mənimlə eyni boyda, nəzərəçarpan cizgiləri olan boy-buxunlu qız idi. Bir neçə ilə lap gözəlləşəcəyinə əmin idim. Lakin mən onu ilk dəfə görəndə xarici görünüşü daxili gözəlliyindən çox geri qalırdı. Onda tarazlıq pozulmuşdu, çoxları onu geriyə çevrilib baxılacaq qədər gözəl hesab etmirdilər. Bir hissəsi yetkin, digər hissəsi hələ də uşaq idi – və bunlar bir-biri ilə uyğun gəlmirdi. İnsanlar da bu uyğunsuzluğu xoşlamırdılar.

Yəqin ki, evlərimiz bir-birimizə daş atacaq qədər yaxın olduğundan bizim məktəbə gələndən bir ay sonra onu mənim yanımda oturtmuşdular. Ona hansı kitabların lazım olduğunu, həftəlik qiymətləndirmələrin necə aparıldığını, hər kitabdan nə qədər dərs keçdiyimizi, təmizlik və nahar yeməyi zamanı vəzifələrimizi başa saldım. Məktəbin şərtlərinə əsasən, təzə gələn şagirdə onun yanında oturan kömək etməli idi, müəllimim də məni kənara çəkib, ayağı axsaq Şimamotoya xüsusi diqqət göstərməyimi xahiş eləmişdi.

Qarşı cinslə ilk dəfə danışan bütün on bir-on iki yaşlı uşaqlar kimi, biz də ilk günlər gərgin idik. Öyrənəndə ki, ikimiz də evin tək uşağıyıq, bir az rahatlaşmışdıq. İkimiz də ilk dəfə evin tək uşağı ilə rastlaşmışdıq. Hər ikimiz evin tək uşağı olmağın ağırlığını daşıyırdıq. Çox vaxt evə birgə gedirdik. Ayağına görə asta-asta addımlayırdıq, evə qədər hər mövzudan danışaraq bir milə yaxın yol gedirdik. Söhbətləşdikcə nə qədər çox ortaq nöqtəmiz olduğunu başa düşürdük: kitaba, musiqiyə olan bağlılığımız, hələ pişikləri demirəm. Fikirlərimizi başqalarına ifadə etməkdə ikimiz də çətinlik çəkirdik. İkimizin də xoşlamadığı yeməklərdən

uzun bir siyahı düzəltmək olardı. Məktəbdəki dərslərə gəlincə isə, xoşladığımız mövzular olanda diqqətimizi yönəltməkdə çətinlik çəkmirdik, xoşlamadığımız mövzulara isə eyni dərəcədə nifrət edirdik. Amma aramızda əsaslı bir fərq var idi: Şimamoto ətrafına məndən daha çox şüurlu şəkildə qoruyucu qalxan çəkirdi. Məndən fərqli olaraq, nifrət etdiyi dərsləri oxumaq üçün səy göstərir və yaxşı qiymətlər alırdı. Məktəbin bufetində nifrət etdiyi yeməklər olanda yeməyə çalışırdı. Başqa cür desəm, öz ətrafına mənim qura biləcəyimdən daha böyük müdafiə divarı hörmüşdü. Bu divarın iç tərəfində isə mənimki ilə tamamilə eyni şeylər var idi.

Başqa qızlarla keçirdiyim vaxtlardan fərqli olaraq, Şimamoto ilə çox rahat olurdum. Onunla bir yerdə evə getmək xoşuma gəlirdi. Yeriyəndə azca axsayırdı. Hərdən yolu yarılayanda dayanıb fasilə verirdik, mən də onu tələsdirmirdim. Əksinə, hətta daha çox bir yerdə vaxt keçirəcəyimiz üçün sevinirdim.

Beləcə, vaxtımızın çoxunu birgə keçirməyə başlamışdıq, amma heç kimin bizə lağ etməsini xatırlamıram. O vaxtlar bu heç diqqətimi çəkməmişdi, amma indi qəribə gəlir. Axı o yaşdakı uşaqlar təbii olaraq bir-biri ilə yaxın olan bütün cüt gəzənləri lağa qoyurlar. Bəlkə də, buna səbəb Şimamotonun xarakteri idi. Onun təbiətində insanları özündən uzaqlaşdıran nəsə var idi. İnsanları belə düşünməyə vadar edən xarakteri var idi: *bu qıza qarşı şit zarafat eləməsəm yaxşıdır*. Hətta müəllimlər də ondan çəkinirdilər. Bəlkə də, bu, Şimamotonun axsaqlığına görə idi. Bütün hallarda çoxları Şimamotonun zarafatlaşmaq üçün yaxşı hədəf olmadığını düşünürdülər. Bu mənim üçün də yaxşı bir şey idi.

Bədən tərbiyəsi dərslərində bir kənarda otururdu, bütün siniflə gəzintiyə, yaxud dağa dırmaşmağa gedəndə evdə qalırdı. Yay aylarında üzgüçülük məktəbi zamanı da eyni vəziyyət olurdu. İllik idman yarışlarında da kefsiz olurdu. Bunları çıxsaq, normal məktəb həyatı var idi. Ayağı haqqında danışmazdı. Yaddaşım məni aldatmırsa, heç vaxt bu barədə danışmamışdı.

Birlikdə məktəbdən evə gələndə məni yavaşlatdığı üçün heç vaxt nə üzrxahlıq, nə də məyus olduğunu büruzə verən bir hərəkət eləmişdi. Bununla belə, bilirdim ki, ayağı onu utandırır deyə bu barədə danışmaqdan çəkinir. Ayaqqabılarını yapon adətinə görə qapının girişində çıxarmalı olduğundan başqa uşaqların evinə getmək istəmirdi. Ayaqqabılarının dabanının hündürlüyü və formaları müxtəlif idi, məhz bu, nəyin bahasına olursa olsun, hamıdan gizlətmək istədiyi şey idi. Yəqin ki, xüsusi olaraq onun üçün hazırlanırdı. Evə çatar-çatmaz ilk elədiyi şey tələsik şəkildə ayaqqabılarını çıxarıb şkafda gizlətmək idi.

Şimamotonun evində təptəzə musiqi mərkəzi var idi, musiqiyə qulaq asmaq üçün ora gedirdim. Əla cihaz idi. Amma yenə də atasının val kolleksiyasını əvəz edə bilmirdi. Əsasən, slov musiqilərdən ibarət kolleksiyada on beş val olardı. On beş valı min dəfələrlə dinləmişdik, hətta hər bir notunu bu gün də xatırlayıram.

Vallara Şimamoto cavabdeh idi. Birini qabından çıxarar, valın bayır səthinə barmaqlarını toxundurmadan diqqətlə cihaza yerləşdirər, balaca bir fırça ilə başlığı təmizləyər, tozsuz olduğuna əmin olandan sonra iynəni valın üzərinə qoyardı. Musiqi bitəndə vala spreylə yüngülcə maye hopdurar və yumşaq bezlə silərdi. Sonda valı qabına yerləşdirib rəfdəki yerinə qoyardı. Bu proseduru ona atası öyrətmişdi, o da bu göstərişləri üzündəki ciddi ifadəylə, gözlərini qıyıb asta-asta nəfəs alaraq yerinə yetirirdi. O bunları edərkən mən divanda oturub onun hər hərəkətinə tamaşa eləyirdim. Yalnız val rəfdəki yerini alandan sonra mənə baxar və yüngülcə gülümsəyərdi. Buna görə hər dəfə bir düşüncə məni narahat edərdi: onun əlində olan val deyildi, şüşə qabın içindəki kövrək ruh idi.

Bizim evdə nə val, nə də musiqiyə qulaq asmaq üçün cihaz var idi. Valideynlərim musiqi dinləməyi çox da sevmirdilər. Buna görə kiçik plastik AM radioda musiqiyə qulaq asırdım. Rock`n Roll sevimli janrım idi, amma sonradan Şimamotonun